# Şəkillərdən gördüyüm Qarabağ

*(Müharibədə olan atama)*



**Ayan Əliyarli,**
*Bakıdakı 236 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi*

Dərslik kitablarımda Qarabağı görərdim,
Adını oxuduqca kədərlənib deyərdim,
Nə gözəl yerləri var bizim olsa gedərdik,
Dağını, meşəsini qarış-qarış gəzəydik,
Şəkillərdə boylanan o keçmişə dönəydik.

Qəfil qonaqlar kimi cəbhədən gəlir xəbər,
Hamı ekran önündə sevinclə əyləşərək,
Azad olunan kəndin tarixindən danışır,
Sevincdən ağlayaraq bir-birinə sarmaşır.
Hər tərəf bəzənibdi üç rəngli bayrağımla
Maşınların üstündə, binaların önündə
Qarabağ kəndlərində - insan əli çatacaq
Hər yüksək zirvəsində!

İndi anlayıram ki, vərəqlərdən baxdığım,
Şəkillərdə gördüyüm o torpaqlar bizimdi.
Bu günlərdə alınan o torpağın sevinci,
Vətənimin uğuru, mənim qürür yerimdi.
İgid əsgərlərimiz ana vətən uğrunda,
Qalib olub döyüşür, bizə sevinc yetişir.
Dil acıb danışmayan balaca bacım belə
Hər gün evdə deyir ki,
QARABAĞ da BİZİMDİR!

Azərb. müəllimi.- 2021.- 3 dekabr.- S.14.